# DÖVLƏT İMTAHAN MƏRKƏZİ 2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ ÜMUMİ (9 illik) ORTA TƏHSİL BAZASINDA

# TƏLƏBƏ QƏBULU ELAN EDİR

**1.** Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququna ümumi orta, tam orta, orta ixtisas və ya ali təhsili başa vurması haqqında müvafiq dövlət nümunəli sənəd almış şəxslər malikdirlər. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri (buraxılış kurslarında təhsil alanlar istisna olmaqla) orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak edə bilməzlər.

Dövlət təhsilalanların orta ixtisas təhsili pilləsində yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

Orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu 2019-cu il fevralın 22-dən martın 11-dək internet vasitəsilə aşağıdakı qaydada aparılır:

Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (*eservices.dim.gov.az/erizetex/erize*) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurur və ərizəni təsdiq edirlər (etdirirlər). Müsabiqədə iştirak ödənişlidir. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən **orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının** (yalnız ümumi təhsil müəssisələrini bitirən) **cari ildə keçirilən imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olacaq.** Digər abituriyentlər isə ərizəni təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqdan sonra onların şəxsi kabinetlərindəki hesablarından çıxılır. Abituriyentin imtahanda dövlət büdcəsinin vəsaiti hesabına və ya ödənişli əsaslarla iştirak etməsi barədə məlumat "Abituriyentin elektron ərizəsi" proqramı tərəfindən abituriyentə təqdim olunur.

Ərizənin təsdiqi DİM-in məlumat bazasında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla (bax: 1.1 və 1.2-ci bənd) həyata keçirilir (ərizənin hansı üsulla təsdiq ediləcəyi barədə məlumat proqram tərəfindən "Abituriyentin elektron ərizəsi" forması təsdiq edilənədək ərizəyə hər dəfə daxil olarkən ekranda göstərilir):

**1.1.** Ümumi (9 illik) orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər elektron ərizələrini **Sənəd Qəbulu Komissiyalarına (SQK) <u>müraciət etmədən</u>** elektron ərizə səhifəsindəki müvafiq düyməni basmaqla **<u>özləri</u>** təsdiq edirlər;

**1.2.** Ümumi (9 illik) orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü ildən əvvəl və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən təhsil müəssisələrində bitirən abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri (bax: 3-cü bənd) təqdim etməklə aşağıdakı SQK-larda təsdiq etdirirlər. SQK- lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9-dan 17-dək fəaliyyət göstərirlər:

*DİM (Bakı ş., M.Müşfiq küç., 1M)*
*DİM-in Naxçıvan MR Regional Bölməsi (Naxçıvan ş., Nizami küç., 10);*
*DİM-in Gəncə Regional Bölməsi (Gəncə ş., H.Əliyev meydanı, İnzibati bina);*
*DİM-in Lənkəran Regional Bölməsi (Lənkəran ş., H.Aslanov xiyabanı 52);*
*DİM-in Şəki Regional Bölməsi (Şəki ş., M.Rəsulzadə prospekti, 182);*
*DİM-in Şirvan Regional Bölməsi (Şirvan ş., M.Rəsulzadə küç., 19);*
*DİM-in Göyçay Regional Bölməsi (Göyçay ş., Rauf İsayev küç., 43);*
*DİM-in Bərdə Regional Bölməsi (Bərdə ş., H. Əliyev prospekti, 100);*
*DİM-in Xaçmaz Regional Bölməsi (Xaçmaz ş., M.Ə.Rəsulzadə küç., 7b);*
*DİM-in Şəmkir Regional Bölməsi (Şəmkir ş., Bakı-Qazax ş, İnzibati bina–"west gate").*

**2.** Birinci qrup əlil abituriyentlər üçün imtahan zamanı zəruri şərait yaradılır. Bu abituriyentlər əlilliyi təsdiq edən sənədlərin əslini DİM-ə və ya onun regional bölmələrinə təqdim etməlidirlər.

**3. Elektron ərizələrini SQK-larda təsdiq etdirməli olan abituriyentlər SQK-ya aşağıdakı sənədləri təqdim edirlər:**

- ***elektron ərizəsinin iş nömrəsi və şəxsi kabinetinin istifadəçi adı (şəxsiyyəti təsdiq edən sənədin FİN kodu);***

- ***ümumi orta,*** tam orta, orta ixtisas və ya ali təhsil haqqında sənədin əslini (*tam orta, orta ixtisas və ya ali təhsil haqqında sənədin əslini təqdim edən abituriyentlər, həmçinin* məzunu olduqları təhsil müəssisəsi tərəfindən verilən müəyyən olunmuş formada attestat qiymətləri göstərilən arayışı - *"Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları"na 1 nömrəli əlavə)****;***
- ***şəxsiyyəti təsdiq edən sənədin əslini:***
  - *Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini;*
  - *əcnəbilər icazə vəsiqələrini və (və ya) pasportlarını;*
  - *vətəndaşlığı olmayan şəxslər icazə vəsiqələrini və ya yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədlərini;*
  - *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini;*
  - *qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini;*
  - *beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;*
- ***Azərbaycan Respublikasında orta ixtisas təhsili müəssisələrini bitirən abituriyentlər dövlət hesablı yerlərin müsabiqəsində iştirak etmək üçün bitirdikləri təhsil müəssisəsi tərəfindən verilən və orta ixtisas təhsilinin ödənişli əsaslarla olmasını təsdiq edən arayışı*** *("Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları"na 2 nömrəli əlavə);*
- ***əcnəbilər və xarici ölkələrdə təhsil almış şəxslər yuxarıda qeyd olunan sənədlərlə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini.***

**4.** İxtisaslar siyahısında xüsusi qabiliyyət tələb edən ixtisaslar ulduz «*» işarəsi ilə qeyd olunmuşdur. Bu ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəyən abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra **iyulun 8-dən 16-dək** *eservices.dim.gov.az/erizetex/qabiliyyet* internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün abituriyent şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməli və tələb olunan məbləği (qeydiyyatdan keçmək istədiyi komissiyaların sayından asılı olaraq) şəxsi kabinetindəki hesabına əlavə etməlidir. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən **orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olacaq**. Qeydiyyatdan keçmiş abituriyentlər müəyyən edilmiş cədvəl üzrə iyulun 18-dən 22-dək qabiliyyət imtahanında iştirak edirlər.

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir və imtahanların nəticəsi "məqbul" və ya “qeyri-məqbul”la qiymətləndirilir.

Xüsusi qabiliyyət tələb edən ixtisasları yalnız müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından “məqbul” alan abituriyentlər seçə bilərlər. Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçə bilərlər.

**5. Ümumi (9 illik) orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və ya ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən təhsil müəssisələrində bitirən abituriyentlər** müsabiqədə iştirak etmək üçün Azərbaycan dili və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı verirlər. Qəbul imtahanını Azərbaycan dilində verən abituriyentlər xarici dil kimi ingilis, alman, fransız, rus, ərəb və ya fars, qəbul imtahanını rus dilində verən abituriyentlər isə ingilis, alman və ya fransız dillərini seçə bilərlər.

**Ümumi (9 illik) orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər** qəbul imtahanı vermirlər və müsabiqədə Azərbaycan dili və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən **buraxılış imtahanında (9-cu siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak edirlər. Lakin** aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq 2019-cu il martın 31-də bəzi fənn və yaxud fənlərdən imtahan verirlər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan **ümumi təhsil müəssisələrinin məzunları** orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq **Azərbaycan dili** və ya **rus dili** fənnindən əlavə olaraq **imtahan verirlər.** Bu halda abituriyentlər imtahan üçün əlavə ödəniş edirlər. **Ödəniş etmək üçün** abituriyentlər şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə etməlidirlər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan

ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün **əlavə olaraq rus dili** fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün **əlavə olaraq Azərbaycan dili** fənnindən **imtahan verirlər**. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçirlər və imtahan üçün əlavə ödəniş edirlər. **Ödəniş etmək üçün** abituriyentlər şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə etməlidirlər.

- **Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən** məzunlar müsabiqədə iştirak etmək üçün həmin **xarici dildən imtahan verirlər**. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçirlər və imtahan üçün əlavə ödəniş edirlər. **Ödəniş etmək üçün** abituriyentlər şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə etməlidirlər.
- **Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda** qəbul imtahanında xarici dil fənni üzrə **imtahan verə bilərlər**. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçirlər və imtahan üçün əlavə ödəniş edirlər. **Ödəniş etmək üçün** abituriyentlər şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə etməlidirlər. **Qeyd olunan kateqoriyadan olan məzunlar** xarici dil fənnindən imtahan vermək **istəmədikləri** halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçirlər. Bu zaman onların imtahandan toplaya biləcəkləri **maksimal ümumi balları** iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə **200** bal təşkil edir.

**6.** Qəbul imtahanı iki mərhələdə keçirilir. İmtahanın **birinci mərhələsi** üzrə abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 20, riyaziyyat fənnindən 10 və xarici dil fənnindən 15 olmaqla, ümumilikdə 45 tapşırıq təqdim edilir. Tapşırıqların yerinə yetirilməsinə 3 saat vaxt ayrılır. İmtahanın birinci mərhələsinin fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimidir:

***Xarici dil***

- Dinləyib-anlama mətni (publisistik və ya dialoq) üzrə 6 tapşırıq
(2 yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli və 4 qapalı tipli);
- Oxuyub-anlama mətni üzrə 9 tapşırıq
(4 yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli və 5 qapalı tipli).

***Azərbaycan (rus) dili***

- Oxuyub anlamaya dair 2 mətn (bədii, publisistik), hər mətn üzrə 10 tapşırıq (5 yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli və 5 qapalı tipli).

***Riyaziyyat***

- Həllinin ətraflı şəkildə yazılması tələb olunan 10 açıq tipli tapşırıq.

**İkinci mərhələdə** hər bir fənn üzrə 30 tapşırıq olmaqla, ümumilikdə Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən 90 qapalı tipli test tapşırığı təqdim edilir. Test tapşırıqlarının cavablandırılmasına 3 saat vaxt ayrılır.

**Qəbul imtahanının birinci mərhələsində iştirak etməyən abituriyent ikinci mərhələyə, ikinci mərhələdə iştirak etməyən abituriyent ixtisas seçiminə buraxılmır. Cari ilin məzunu isə buraxılış imtahanının hər hansı bir mərhələsi üzrə imtahanda iştirak etmədiyi halda ixtisas seçiminə buraxılmır.**

Qəbul (buraxılış) imtahanlarının nəticələri 2 il qüvvədə olur. Həmin nəticələr əsasında abituriyent müvafiq illər üzrə müsabiqə şərtlərini ödədiyi halda cari və növbəti tədris illərində orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında keçirilən tələbə qəbulu üzrə müsabiqədə iştirak edə bilər. Abituriyent öz istəyinə uyğun olaraq, müsabiqədə iştirak etmək üçün növbəti il yenidən qəbul imtahanında iştirak edə bilər. Bu zaman abituriyent müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini özü müəyyən edir.

**Xüsusi qabiliyyət tələb edən ixtisasların** müsabiqəsində iştirak etmək üçün tələb olunan qabiliyyət imtahanının nəticəsi yalnız abituriyentin imtahan verdiyi il qüvvədə olur və növbəti il üçün bu nəticə öz qüvvəsini itirir.

**7.** Qəbul imtahanında iştirak etmək üçün (hər iki mərhələdə) abituriyent müəyyən olunmuş tarixdə internetdən "İmtahana buraxılış vərəqəsi"ni çap edir.

**Abituriyent imtahana gələrkən aşağıdakı sənədləri özü ilə mütləq gətirməlidir:**

***- İmtahana buraxılış vərəqəsini;***

***- Şəxsiyyəti təsdiq edən sənədin əslini:***

- *Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini;*
- *əcnəbilər icazə vəsiqələrini və (və ya) pasportlarını;*

- *vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədlərini və ya icazə vəsiqələrini;*
- *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini;*
- *qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini;*
- *beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;*

***- 16 yaşı martın 1-dək tamam olmayan şəxslər ("yeni nəsil şəxsiyyət vəsiqəsi" olanlar istisna olmaqla), digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş fotoşəkilli arayışı (Əlavə 1).***

**8. Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər** ümumi qaydada elektron ərizələrini təsdiq etdikdən (etdirdikdən) sonra "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən (***ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün***) test imtahanı verirlər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. Bu imtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 30 test tapşırığı təqdim edilir. Hər düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar yekun bala təsir göstərmir. **Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır**.

Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan iki dəfə – 2019-cu il mayın 5-də Bakı şəhərində və digər bölgə mərkəzlərində, mayın 26-da isə yalnız Bakı və Naxçıvan şəhərlərində keçirilir.

Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə imtahanın nəticələri iki il qüvvədə olduğundan, **2018-ci ildə bu imtahandan "məqbul" alan abituriyentlər** cari ildə bu imtahanda iştirak etmirlər.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan **ümumi orta** təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanından nisbi balı ən azı 50 olduğu halda, onların həmin nəticələri əsas götürülür və "məqbul" almış hesab olunurlar. Həmin imtahan üzrə nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunurlar və Azərbaycan dili (dövlət dili kimi) fənnindən yenidən imtahan verirlər. Bu halda abituriyentlər imtahanda iştirak etmək üçün müvafiq qaydada ödəniş edirlər.

**Abituriyentlər ilk imtahanda iştirak edə bilmədiyi və yaxud "qeyri-məqbul" aldığı** (cari il məzunlarının bu fənn üzrə imtahanda nisbi balı 50-dən az olduğu) **halda,** təkrar imtahanda iştirak etmək üçün mayın 8-dən 14-dək *eservices.dim.gov.az/erizetex/azdili* internet səhifəsində qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün abituriyent şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməli və tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

**Azərbaycan dili (dövlət dili kimi) fənni** (*ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün*) imtahanından "məqbul" ala bilməyən abituriyentlər **müsabiqəyə buraxılmırlar.**

**9. İxtisas seçimi qəbul imtahanı (hər iki mərhələ üzrə) başa çatdıqdan sonra həyata keçirilir. İxtisas seçiminə ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan** abituriyentlər buraxılırlar. Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət hesabına və ödənişli əsaslarla olan **12-dək ixtisas kodunu** seçə bilər. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirir. Müsabiqə zamanı abituriyentin yerləşdirilməsi onun seçdiyi ixtisasların ardıcıllığı nəzərə alınmaqla qəbul planı çərçivəsində həyata keçirilir və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

**Xüsusi qabiliyyət tələb edən** ixtisasların müsabiqəsinə **ümumi balı 50-dən az olmayan** (fənlər üzrə bal məhdudiyyəti qoyulmur) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından məqbul alan abituriyentlər buraxılırlar.

**10.** Müsabiqə abituriyentin qəbul imtahanında topladığı ümumi bal əsasında aparılır.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqda əlavə göstəricilərdən istifadə edilir:

- təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;
- Azərbaycan (rus) dili fənni üzrə imtahan balı;
- riyaziyyat fənni üzrə imtahan balı.

Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

**11.** Qəbul kampaniyası dövrü abituriyentin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

– saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;
– imtahana mobil telefon və digər rabitə vasitələri, xarici yaddaş qurğusu, kalkulyator və digər

elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə tütün məmulatı gətirmək;
- səbəbindən asılı olmayaraq, imtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq, "İmtahan başlandı!" elan olunan andan 1 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində zaldan çıxmaq;
- başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab kartını (vərəqini) və sual kitabçasını zədələmək, onları nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Abituriyentin 11-ci bənddə göstərilən hərəkətlərə yol verməsi halları DİM tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

**12.** Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisasa yerləşdirilmiş abituriyent tələb olunan sənədləri DİM tərəfindən müəyyən edilən 10 gün müddətində qəbul olunduğu təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidir. Abituriyentin bu müddətdə təhsil müəssisəsində qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu abituriyentlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar.

# Balların hesablanma qaydası

İmtahan nəticələri hər fənn üzrə 100 ballıq qiymət şkalası ilə qiymətləndirilir. Səhv cavablar abituriyentin ümumi balına təsir etmir. Abituriyentin ümumi balı hər bir fənn üzrə topladığı balların cəmi əsasında müəyyənləşir və toplanıla bilən maksimal bal 300-dür. Abituriyentlərin fənlər üzrə test tapşırıqlarına cavab ballarının cəminin 100 ballıq qiymət şkalasına uyğunluğu aşağıdakı cədvələ əsasən müəyyən olunur:

| Fənn | Komponent № 1 (I mərhələ, test tapşırıqları) | | | Komponent № 2 (II mərhələ, test tapşırıqları) | | |
|---|---|---|---|---|---|---|
| | **Maksimal bal** | **Test tapşırıqlarınn sayı** | **Bal** | **Maksi-mal bal** | **Test tapşırıq-larının sayı** | **Bal** |
| Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 30 | 15 (6 açıq + 9 qapalı) | $\frac{10}{7}\cdot(2n_{d(açıq)}+n_{d(qapalı)})$ | 70 | 30 (qapalı) | $\frac{7}{3}n_{d\ (qapalı)}$ |
| Tədris dili (Azərbaycan dili, rus dili) | 30 | 20 (10 açıq + 10 qapalı) | $2\cdot n_{d\ (açıq)}+n_{d\ (qapalı)}$ | 70 | 30 (qapalı) | $\frac{7}{3}n_{d\ (qapalı)}$ |
| Riyaziyyat | 30 | 10 (açıq) | $3\cdot n_{d(açıq)}$ | 70 | 30 (qapalı) | $\frac{7}{3}n_{d\ (qapalı)}$ |

$n_{d\ (açıq)}$ - açıq tipli test tapşırıqlarına verilmiş balların cəmi
$n_{d\ (qapalı)}$ - qapalı tipli test tapşırıqlarına verilmiş balların (düzgün cavabların) cəmi

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin göstərdiyi xidmətlərin haqqı aşağıdakı kimi müəyyən edilmişdir:

| Xidmətlərin adı | Ölçü vahidi | Tarif (ƏDV-siz, manat) |
|---|---|---|
| Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahan | 1 iştirak üçün | 20 |
| Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına tələbə qəbulu ilə bağlı **qabiliyyət** imtahanı | 1 iştirak üçün | 20 |
| Rus bölməsi abituriyentləri üçün **Azərbaycan dili (dövlət dili kimi) fənni** üzrə test imtahanı (ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün) | 1 iştirak üçün | 10 |
| Ümumi təhsil müəssisələrinin cari il məzunlarının (5-ci bənddə göstərilən hallarda) əlavə olaraq verdikləri **Azərbaycan dili** və ya **rus dili fənnindən imtahan** | 1 iştirak üçün | 10 |
| Cari il məzunlarının qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən **fərqli xarici dil fənni imtahanı** | 1 iştirak üçün | 10 |
| Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin cari il məzunlarının (istədikləri halda) verdikləri **xarici dil fənni imtahanı** | 1 iştirak üçün | 10 |

**QEYD 1: Şəxsi kabinetinizin hesabına vəsait köçürərkən iştirak edəcəyiniz imtahanların və bu imtahanlar üçün müəyyən edilmiş qiymətləri nəzərə alın. Şəxsi kabinetinizin hesabına köcürdüyünüz istifadə edilməmiş vəsait qəbul kampaniyası bitdikdən sonra geri qaytarılacaq, lakin bu zaman həmin vəsaitdən ödəmə sistemləri tərəfindən pul köçürmələri ilə bağlı göstərilən xidmətlərin haqqı tutulacaq.**

**QEYD 2: Ali təhsil və orta ixtisas təhsili müəssisələrini bitirən bütün abituriyentlər üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları həmin abituriyentlərin hesabına həyata keçirilir.**